**Qriqori Petrov**

# *Ağ zanbaqlar ölkəsi*

Tərcüməçi:
Araz Gündüz

QANUN NƏŞRİYYATI

Григорий Петров

# *Финляндия, страна белых лилий*

Əsər geridə qalmış bir ölkənin tərəqqi yoluna çıxmasının və çiçəklənməsinin özünəməxsus modelini yaradır. Yarıreal, yarıutopik təsvirlərlə təqdim olunan Finlandiya sonradan, həqiqətən, ciddi tərəqqi yolu keçərək dünyanın ən qabaqcıl və zəngin ölzkəsinə çevrilir. Bu əsərin yazılmasına qədər və ondan sonrakı Finlandiyanın müqayisəsi heyrət doğurur.

**Григорий Петров  ФИНЛЯНДИЯ, СТРАНА БЕЛЫХ ЛИЛИЙ**
**Qriqori Petrov  AĞ ZANBAQLAR ÖLKƏSİ**

Janr: roman
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 208

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Araz Gündüz
Redaktor: Hədiyyə Şəfaqət
Qapaq dizaynı: Rafael Qasım
Mətn dizaynı: Rahilə Şamilqızı

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-611-2

© Qanun Nəşriyyatı, 2026
© Григорий Петров, 1923

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

## MÜNDƏRİCAT

1. MENE, TEKEL, PERES ........................................................... 9

2. QƏHRƏMANLAR VƏ KÜTLƏ ............................................ 13

3. "İKUYNEN TAYSTELU"........................................................ 20

4. SUOMİ ........................................................................... 44

5. SNELMAN ........................................................................ 49

6. KİLSƏ ............................................................................. 54

7. İNZİBATİ İDARƏETMƏ ........................................................ 61

8. KAZARMA ....................................................................... 65

9. FUTBOL ........................................................................... 77

10. VALİDEYNLƏR VƏ UŞAQLAR ........................................ 87

11. KAROKEP ....................................................................... 95

12. KƏNDLİLƏR ..................................................................... 136

13. PASTOR MAKDONALD ................................................... 161



*Qriqori Spiridonoviç Petrov*
*(1866-1925)*

# 1

# Mene, Tekel, Peres

Bir neçə il öncə gözlənilmədən Moskvadakı Böyük İmperator teatrı binasının divarlarında çatlar əmələ gəldi. Çatlar binanın özülündən başlayaraq, damınadək uzanırdı, bu böyük binanın qəfildən uçub içəridəki və yaxınlıqdakı insanları dağıntıları altında dəfn etməsi təhlükəsi yaranmışdı. Çatlaqların səbəbini axtarmağa başladılar, bunun üçün binanın özülü boyunca bir neçə yerdə dərin çuxurlar qazdılar. İmperator teatrının daşdan tikilmiş bu nəhəng binasının köhnəlmiş ağac bünövrə üzərində dayandığı üzə çıxdı.

Yüz il bundan qabaq, bu böyük binanı tikməzdən öncə, torpağa iri və yoğun payalar çaxılmış, üzərinə yoğun palıd tirlər düzmüş, sonra yaranan bünövrənin üzərində hündür daş divarlar ucaltmışdılar. O dövrlərdə bu cür bünövrə yetərincə möhkəm sayılırdı.

Beləliklə, teatr binası yüz il bu bünövrənin üzərində dayanmış, ancaq zaman öz işini görmüşdü. Yoğun tirlər çürümüş, divarlar çökməyə və çat verməyə başlamışdı. Divarlarda iri yarıqlar əmələ gəlmiş, onların uçulma-

sı təhlükəsi yaranmışdı. Nə etməli? Binanımı sökməli? Mühəndislər başqa bir həll yolu tapdılar. Çürümüş tirləri tədricən, hissə-hissə, böyük qranit lövhələrlə əvəz etməklə bütün bünövrəni dəyişdilər. Nəticədə, İmperator teatrının nəhəng binası yeni, möhkəm bünövrənin üzərində dayandı. Elə indi də bina öz sarsılmaz bünövrəsinin üzərində dayanmaqdadır.

Dövlətlərin və xalqların həyatı bizə Moskvadakı İmperator teatrıyla bağlı hadisəni xatırladır. Dövlət quruluşunun köhnəlib sıradan çıxmış təməli, xalqların köhnə üsullarla idarəsi, keçmiş zamanlarda hansısa bir məna kəsb etsə də, indi artıq öz gücünü itirmiş, yararsız hala düşmüşdür. Müdrik bir atalar sözündə deyilir: "Yeni dövrün yeni mahnıları qoşulur". İnsan nəsilləri dəyişir. Yenilənir. Bu dəyişilmələr isə özüylə yeni anlayışlar, yeni meyillər, yeni tələblər gətirir. Artıq yeni nəsilləri zorla imkanları tükənmiş bu köhnə idarəetmə formalarıyla, köhnəlmiş üsullarla idarə etmək mümkün deyil, yeni nəsillərin həyatının – ağıllı, ədalətli və möhkəm dövlət idarəçiliyi bünövrəsi üzərində qurulması zəruridir.

Bir sıra ölkələrdə dövlətə başçılıq edən şəxslər, məhz belə edirlər. Xalq kütlələrinin idarə edilməsi üçün sakitliklə, heç nəyi sındırıb dağıtmadan, vaxtında, müdrik və ədalətli idarəetmə formalarını ictimai həyata daxil edirlər. Lakin bəzi ölkələrdə xalqın idarə edilməsi və tərbiyə olunması üsullarının tədricən və arasıkəsilmədən yaxşılaşdırılması zərurətini anlamır, ya da anlamaq istəmirlər. Buna görə də, dövlət binasının divarlarında çatlar yaranır, uzununa və eninə genişlənir, ancaq heç kim onlara fikir vermir. Buna